Kim qardaşının ismətini qoruyarsa, Allah da onu Qiyamət günü cəhənnəm əzabından qoruyar

Əbu Dərdadan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilmişdir: "Kim qardaşının ismətini qoruyarsa, Allah da onu Qiyamət günü cəhənnəm əzabından qoruyar".

[Səhih] [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim müsəlman qardaşının yoxluğunda onun qınanmasının, haqqında pis söylənilməsinin qarşısını alarsa, Qiyamət günü Allah da onu əzabdan qoruyar.

http://www.sunnah.global/hadeeth/az/show/5514